# "MÖHTƏŞƏM ZƏFƏRİN NİŞANƏSİ" ŞƏKİDƏ

Eşq olsun bu səmimiyyətə və bu çox möhkəm tellərlə biri-birinə bağlanmış münasibətə! Sözsüz ki, mən bütün gücümlə bu münasibəti saxlamağa və yüksələn xəttlə inkişaf etdirməyə çalışacağam. Bu da mənim müqəddəs borclarımdan biridir.

Yenidən tədbirə qayıdaq. Tədbirin aparıcısı Vaqif müəllim çıxış üçün məni tribunaya dəvət etdi. Mən də tədbir iştirakçılarına "Möhtəşəm Zəfərin nişanəsi" adlı kitabım haqqında məlumat verdim, öz ürək sözlərimi dedim və çıxışımı Zəfər günü Prezidentimizin dilindən Ulu öndərimizə həsr etdiyim "Ata, ruhun şad oldu" adlı şeirimi tədbir iştirakçılarına söyləməklə bitirdim.

Tədbirin sonunda Dilbər xanım bu dəfə də öz seçimi ilə "Var ol, Azərbaycanım" adlı şeirimi oxudu. Onun intonasiyasından çox təsirlənmişdim və onu da bildirim ki, onun bu şeirləri oxuması mənim üçün gözlənilməz idi. Mənim şeirlərim Dilbər xanımın dilindən tam təsirli səslənirdi. Hiss edirdim ki, eşidənlər də bu oxunuşdan çox təsirlənib.







Tədbir bağlı elan edildikdən sonra şəhid ailələri və saysız-hesabsız oxucu kütləsi mənimlə görüşdü. Onlar təqdimatı keçirilən, eləcə də digər dörd kitabımı böyük həvəslə alıb oxumağa, mənimlə şəkil çəkdirməyə və mənə xoş sözlər söyləməyə başladılar. Yazıçı ilə oxucu münasibəti həmişə əziz, dəyərli və yadda qalan olub. Mən iştirakçılara mənə göstərdikləri marağa və sağlam, təmənnasız isti münasibətə görə dərin minnətdarlığımı bildirdim.

Vətənimlə və vətənimin biz gənclərə dəyər verən ziyalıları ilə fəxr edirəm. Kitabımın adına uyğun şəkildə möhtəşəm keçən təqdimatında etdiyim çıxışı siz əziz izləyicilərimin diqqətinə çatdırıram:

"Bütün tədbir iştirakçılarını salamlayır, bu təqdimat mərasimində iştirak etmək üçün əziyyət çəkib gələn hər bir kəsə dərin minnətdarlığımı bildirirəm.

Əziz və hörmətli tədbir iştirakçıları! "Qarabağ ağrısı" adlı bir anlayış hamımıza çox yaxşı tanışdır. Hamımız bu ağrını 30 il qəlbimizdə, beynimizdə, canımızda, qanımızda daşımışıq və yaşamışıq. Qaçqınların, məcburi yurd-yuvalarından didərgin salınanların ağrısını, acısını içimizdə hiss etmişik və özümüzü hər an onların yerinə qoymuşuq.

Mən də bu ağrını bir məcburi köçkün ailəsinin fərdi olaraq yaşamışam və bilirəm ki, bizim dədə-babalarımız, anabacılarımız keçən bu illər ərzində nələr çəkiblər. Qaçqınlıq, məcburi köçkünlük damğası adı altında yaşamaq hamı kimi məni də daxilən yandırır, şam kimi əridirdi. Mən də hamı kimi bundan bir çıxış yolunu axtarırdım. Bu da onun sübutudur ki, əvvəl qələmə aldığım 4 kitabımın hamısında və hazırda iştirakınızla təqdimatı keçirilən bu kitabımda Qarabağ ağrısına xüsusi yer ayırmışam.

Lakin hazırda təqdimatı keçirilən bu kitab əvvəlki dörd kitabdan çox-çox fərqlidir. Çünki bu kitab Qarabağ ağrısına yox, Qarabağın azadlığı sevincinə, Zəfər sevincinə, Qarabağı qaytarıb özü qayıtmayan vətən oğullarına, qızlarına həsr edilmişdir. Möhtəşəm zəfərin nişanəsi adlı bu kitabımda 76 şəhidimiz haqqında məqalə və şeir, 365 şəhidimiz haqqında hazırladığım vikipediya səhifələri, 2 qazimiz və 2 döyüşçümüz haqqında məqalələrim yer almışdır. O cümlədən İsmayıllı-Balakən bölgəsindən olan, vətən uğrunda qəhrəmanlıqla mübarizə aparmış 30 nəfər şəhidimiz haqqında məlumatlar kitabda yer almışdır. Bu kitabda Zəfər sevincinə axıdılan gözyaşlarını da, Zəfəri canı ilə, qanı ilə qazananlara axıdılan gözyaşlarını da var gücümlə yazıda oxucularıma çatdırmağa çalışmışam. Eyni zamanda bu kitabın adını "Möhtəşəm Zəfərin nişanəsi" olaraq da əbəs yerə seçməmişəm. Belə ki, Şəhidlərimiz, Qazilərimiz, müzəffər ordumuz Möhtəşəm Zəfəri əldə etdilər və özləri də o Zəfərin nişanəsinə çevrildilər. Fikirimi belə izah etmək istəyirəm ki, Zəfər anlayışı, Vətən müharibəsi anlayışı Şəhidlərimiz, Qazilərimiz olmadan, müharibə, döyüş iştirakçıları olmadan yarımçıq qalmış olardı.

Sizi bütün hisslərimi, düşüncələrimi, duyğularımı köçürdüyüm, hər səhifəsi, hər abzası, hər sətiri bir şəhidimizin dastanına çevrilmiş, vətənimizin füsunkar guşəsi olan Qarabağımızın düşmən tapdağından azad edilməsi üçün başlanmış şanlı Vətən müharibəsinə həsr etdiyim "Möhtəşəm Zəfərin nişanəsi" adlı kitabı oxumağa dəvət edirəm.

Bu gözəl tədbirin təşkil edilməsinə şərait yaratdığına görə Şəki rayon icra hakimiyyətinin başçısına, Başçının müavini Zərinə xanıma, tədbiri təşkil etmək üçün çox əziyyən çəkmiş şair Vaqif müəllim Aslana, daim yaradıcılığımı izləyən və diqqət göstərən Şəki rayon prokuroru Mehman müəllim Xankişiyevə , tədbirdə iştirak edib etməməsindən asılı olmayaraq bütün Şəhid ailələrinə və bütün tədbir iştirakçılarına dərin minnətdarlığımı bildirirəm. Allah Zəfərimizi daimi və əbədi eləsin!

İcazənizlə çıxışımı Vətən müharibəsində zəfər anı kimi qeyd etdiyimiz, Ali Baş Komandanımız cənab İlham Əliyevin Fəxri Xiyabanda Ulu Öndərimizin məzarı önündə ata vəsiyyətini yerinə yetirildiyini Şuşanın işğaldan azad edilməsini Atasına söyləməsindən ilhamlanaraq elə həmin gün qələmə aldığım "Ata ruhun şad oldu" adlı şeirimi sizlərə oxumaqla bitirmək istəyirəm."

**ATA, RUHUN ŞAD OLDU!**

***Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin dilindən Ulu Öndərimiz Heydər Əliyevə***

Çox çarpışdın, vuruşdun,
Zəfərə yaxın oldun,
Fateh olubdur oğlun,
Şuşamız azad oldu!
Ata, ruhun şad oldu!

O sözü çatdıranda,
Dilim bayram eylədi,
Sözüm elə güllədi,
Düşmən başına dəydi,
Şuşamız azad oldu!
Ata, ruhunşadoldu!

Mane olammazdılar,
Ordadurammazdılar,
Qazdıqlarıquyuda,
Özləridəazdılar.
Şuşamızazadoldu!
Ata, ruhunşadoldu!

DünyanınAzərləri,
Yığıbdırərənləri,
DönürlərŞuşamıza,
Qeydedirlərzəfəri,
Şuşamızazadoldu!
Ata, ruhunşadoldu!

Bu gözəlzəfərilə,
Bildirdikki, ölməyib,
Bu yurdunərənləri,
RiadvəAlbertləri,
Şuşamızazadoldu!
Ata, ruhunşadoldu!

Xocalıdansonra biz,
AxırçatdıqŞuşaya,
Mənfurdüşməniqovduq,
Biz bubiridünyadan,
Düz o biridünyaya,
Şuşamızazadoldu!
Ata, ruhunşadoldu!

*23.07.2022*

***Sevindik NƏSİBOĞLU***
***8-ci sinif şagirdi,***
***şair-publisist,***
***AJB-nin üzvü***